

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 111 (21.521)

18 iyun 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Belçika Krallığının senatoru, AŞPA-nın Hüquqi İşlər və Demokratiya üzrə Komitəsinin sədri, Azərbaycanda insan haqları üzrə məruzəçi Alen Desteksi qəbul edib.

Senator Alen Desteks Formula-1 yarışlarının başlanması münasibətilə təbriklərini çatdırıb. Dünyada Formula-1 yarışına marağın getdikcə artdığını vurğulayan qonaq ölkəsində də Qran-Pri yarışlarının keçiriləcəyini deyib. Alen Desteks 90 saylı Ağdaş seçki dairəsi üzrə Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək təkrar seçkiləri müşahidə etmək üçün ölkəmizə səfər etdiyini vurğulayıb.

Bakının Formula-1 xəritəsində yeni şəhər olduğunu deyən dövlətimizin başçısı yarışların gələn qonaqlarda maraq doğuracağına, onların ölkəmizlə yaxından tanış olmaları, Azərbaycanda gedən inkişaf prosesləri ilə bağlı dolğun informasiyaların əldə edilməsi baxımından tədbirin yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirib.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# “Əlincəqala” tarixi abidəsi və muzeyi istifadəyə verilmişdir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən “Əlincəqala” tarixi abidəsi bərpa olunmuş və muzeyi yaradılmışdır.

İyunun 17-də “Əlincəqala” tarixi abidəsi və muzeyinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Ali Məclisin Sədri tədbirdə çıxış edərək demişdir: Naxçıvan Muxtar Respublikası zəngin tarixə malikdir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir”***. Hazırda muxtar respublika ərazisində 1200-dən çox dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidə qeydə alınaraq pasportlaşdırılmışdır. Bu abidələrin içərisində qalaların özünəməxsus yeri vardır. Tədqiqatlar göstərir ki, Naxçıvan qala tipli yaşayış yerləri ilə zəngin diyardır. Bu ərazidə qalaların çoxluğunun səbəbi Naxçıvanın əlverişli mövqeyinin, zəngin təbii sərvətləri, şəhər mədəniyyəti və inkişaf etmiş sənətkarlığının yadelli işğalçıların diqqətini cəlb etməsidir.

Ali Məclisin Sədri demişdir: Azərbaycan xalqının mübarizlik və vətənpərvərlik əzmini toplu halında nümayiş etdirən tarixi qalalarımızdan biri də Əlincəqaladır. Qala birinci-altıncı əsrlərdən başlayaraq müdafiə istehkamı və yaşayış yeri kimi istifadə olunmuş, 14 il Əmir Teymurun qoşunlarının hücumlarına müqavimət göstərmişdir. Naxçıvanın Azərbaycan Atabəylər dövlətinin paytaxtı olduğu dövrdə Əlincəqalanın iqtisadi və siyasi mövqeyi əhəmiyyətli dərəcədə artmışdır.

“Tarixi qaynaqlar əsas götürülərək dünya əhəmiyyətli abidə olan Əlincəqalanın bərpa edilməsi xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, burada “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin yaradılması da xüsusi məna daşıyır. Əlincəqalada məskunlaşmış insanların yaşayışını və döyüş sənətini özündə əks etdirən maddi-mədəniyyət nümunələrinin muzeydə nümayiş olunması qala sakinlərinin həyatı və qəhrəmanlıq tarixi haqqında dolğun təsəvvür yaradacaqdır.

Ali Məclisin Sədri demişdir: Qalaları, tarixi abidələri bərpa etmək keçmişi qorumaq, vətənpərvərlik əzmini yaşatmaq deməkdir.





Lakin bununla iş bitmir. Bərpa olunan tarixi abidələr qorunmalı, tədqiq və təbliğ olunmalıdır. Naxçıvanın tarixi abidələrinin öyrənilməsində arxiv materiallarının əhəmiyyətini nəzərə alaraq, Mədəniyyət və Turizm Nazirliyi və Akademiyanın Naxçıvan Bölməsi muxtar respublikadan kənarda Naxçıvanın tarixi abidələri, o cümlədən Əlincəqala ilə bağlı mənbə və materialların əldə edilməsini, “Əlincəqala” tədqiqat qrupu isə qalaya aid materialların araşdırılmasını davam etdirməli və muzeyin ekspozisiyası bundan sonra da zənginləşdirilməlidir. Əlincəqalanın mübarizlik tarixinin vətənpərvərlik tərbiyəsində mühüm rolu nəzərə alınaraq Təhsil Nazirliyi “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyi ilə ümumtəhsil məktəbləri arasında interaktiv dərslərin keçirilməsini, ali və orta ixtisas təhsili müəssisələri isə tələbələrin Əlincəqalaya ekskursiyasını təşkil etməlidirlər. Rabitə və Yeni Texnologiyalar Nazirliyi Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Azərbaycan və ingilis dillərində “Əlincəqala” internet saytının yaradılmasını təmin etməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu “Əlincəqala” kitabının hazırlanmasını təmin etməli, Əlincəqala ilə bağlı maarifləndirmə işini gücləndirməlidir.

Əlincəqalada bərpa işlərinin asan başa gəlmədiyini bildirən Ali Məclisin Sədri qalanın bərpasında əməyi olanların hamısına təşəkkür etmiş, “Əlincəqala” tarixi abidəsinin və muzeyinin açılışı münasibətilə təbriklərini çatdırmışdır.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək demişdir ki, xalq abidələrini yaşadır, abidələr isə xalqı yaşadır. Öz xalqının tarixini yaşadanları isə tarix yaşadır. Əlincəqalanın bərpa olunması xalqımızın çoxəsrlik tarixi-mədəni irsinə diqqət və qayğının növbəti ifadəsidir. Bərpa işləri əyilməzlik və qəhrəmanlıq rəmzi olan tariximizin yaşadılması, təbliği və öyrənilməsi baxımından yeni imkanlar açıb. Qədim tariximizdən soraq verən “Əlincəqala” abidəsi möhtəşəm görkəmi ilə turistlərin ciddi marağına səbəb olacaqdır. Bu amil nəzərə alınaraq “Naxçıvan-Əlincəqala” turist marşrutu hazırlanmış və buklet halında nəşr olunmuşdur. Həmçinin Naxçıvan Turizm İnformasiya Mərkəzinin 3 dildə fəaliyyət göstərən internet saytında da Əlincəqala haqqında məlumat yerləşdirilmişdir.



Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, “Əlincəqala” tədqiqat qrupunun rəhbəri Vəli Baxşəliyev çıxış edərək demişdir ki, tariximizin öyrənilməsi üçün mühüm əhəmiyyəti olan abidələrdən biri də Əlincəqaladır. Bu baxımdan Əlincəqalanın geniş şəkildə araşdırılmasına, mövcud məlumatların ümumiləşdirilməsinə ehtiyac yaranmışdı. Əlincəqalanın xatırlandığı ilk yazılı mənbə “Kitabi-Dədə Qorqud” dastanıdır. Tədqiqat qrupunun apardığı araşdırmalar zamanı Əlincəqalanın tarixinə aid xeyli yeni faktlar aşkar edilmişdir. Qalada tapılan sikkələr qalanın I-VI əsrlərdə yerli hökmdarların əsas iqamətgahlarından biri olduğunu və Mərkəzi Asiya ölkələri ilə əlaqəsi olan qala-şəhər kimi formalaşdığını təsdiq edir. Həmçinin qala və onun ətrafında olan epiqrafik abidələrin öyrənilməsi bu bölgənin Orta əsrlərdə Azərbaycanın mühüm siyasi, sosial və mədəni mərkəzlərindən biri olduğunu göstərir. Tədqiqatlar Əlincəqala toponiminin “Əlincək” tayfa adı ilə bağlı olduğunu və bu tayfaların təqribən III-V əsrlərdə Arazdan şimalda, daha sonra isə Təbrizlə Naxçıvan arasında yerləşdiyini təsdiq edir. Vəli Baxşəliyev tarix və mədəniyyət abidələrimizin bərpası və tədqiqinə göstərdiyi diqqət və qayğıya görə elm adamları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvü Asim Əliyev demişdir: Tariximizin canlı şahidi olan tarixi abidələrimiz içərisində cəsarət, əyilməzlik simvolu kimi dəyərləndirdiyimiz Əlincəqalanın özünəməxsus yeri vardır. Tarixin çətin, ağır anlarında xalq bəzən bir dağa, bir qalaya, bir dahi Şəxsiyyətə sığınıb və bütün çətinliklərə mərdliklə sinə gərib. “Əlincəqalaya sığınaraq özünü müdafiə edən ulu babalarımızın həyat təcrübəsi biz nəvələr üçün açıq dərs oldu. Bir qalaya söykənib zülmə baş əyməyən babalarımız kimi biz də Əlincə əzəmətli, Əlincə vüqarlı ulu öndərimiz Heydər Əliyevə güvənib bu torpağı namərd düşməndən mərdliklə qoruya bildik. Təkcə qorumadıq, onu başdan-ayağa yenidən qurduq, gözəlləşdirdik, həm də bu əzəmətli,

Ardı 2-ci səhifədə





vüqarlı Əlincəqalanın zirvəsində möhtəşəm bir tarixi abidə yaradaraq bir daha gücümüzü göstərə bildik. Əlincəqala bu gündən döyüş meydanı yox, vətənpərvərlik, qəhrəmanlıq meydanıdır. Əlincəqala qəhrəman ulu babaların tarix dolu dünənini bugünkü nəslə daşların, qayaların dili ilə söyləyəcəyi tarix dastanıdır. Naxçıvanın tarixi heç bir dövrdə bu dərəcədə araşdırılmamışdır. Tarixi abidələrimizə heç vaxt bu qədər diqqət və qayğı göstərilməmişdir", – deyən Asim Əliyev sonra Əlincəqalaya həsr etdiyi "Əlincə" şeirini oxumuşdur:

*Günəş doğdu...ocaq çatdı Əlincə,*
*Sərt daşları bir rəng aldı – qızılı.*
*Mənim tarix kitabımdır Əlincə –*
*Hər sətiri al qanımla yazılı.*

*Bu torpaqda qan tökəndə yağılar,*
*Düyünləndi Əlincənin qaşı da.*
*Əsgər oldu, qılınc oldu, ox oldu,*
*İgidləşdi qayası da, daşı da.*

*Heykəl kimi yonulan sərt qayalar*
*Qılıncların zərbəsindən qopubdur.*
*Bu daşlara Nəiminin kəlamı,*
*Nəsiminin qəzəlləri hopubdur.*

*Əsarətə baş əyməyən qalamız*
*Al güllərdən al çələnglər toxuyur.*
*Döyüşlərdən qalib çıxan qalamız*
*Qəhrəmanlıq nəğməsini oxuyur.*

*Babaların sönməz Vətən eşqinə*
*Nəğmə deyən bu çöl, çəmən yaşayır.*
*Yadlar keçib bu torpaqdan yel kimi,*
*Yenə torpaq, yenə Vətən yaşayır.*

*İgidlərin al qanıyla rənglənən*
*Torpağımın bayrağıdır Əlincə!*
*Naxçıvanın mərd qalası, ər oğlu,*
*Düşmənimə göz dağıdır Əlincə!*

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları "Əlincəqala" Muzeyi və tarixi abidəsinə baxmışlar.

Məlumat verilmişdir ki, muzey binası 2 iş otağı və ekspozisiya zalından ibarətdir. Ekspozisiya zalında ümummilli lider Heydər Əliyevin ***"Əlincəqala və bir çox belə abidələr Naxçıvanın qədim Azərbaycan torpağı olduğunu, azərbaycanlıların burada əsrlərlə,***



***min illərlə yaşayıb yaratdığını göstərir"*** fikri, Əlincəqalada məskunlaşan insanların həyat tərzini əks etdirən maddi-mədəniyyət nümunələri, xüsusilə qədim məişət əşyaları, qalada aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi nümunələr, Naxçıvanın və Əlincəqalanın tarixi ilə bağlı yazılmış kitablar, qəzet məqalələri, qalanın bərpadan əvvəl, bərpa zamanı və bərpadan sonrakı fotoşəkilləri nümayiş etdirilir. Buradakı saxsı qab və çıraqlar, Əlincəqala ərazisindən aşkar olunmuş boyalı keramika parçaları Azərbaycanda sənətkarlıq ənənələrinin qədim dövrlərdən formalaşdığını göstərən nadir eksponatlar kimi böyük əhəmiyyətə malikdir. Bütün bunlar həm də xalqımızın orta əsrlər dövrünə aid məişət mədəniyyəti haqqında dolğun təəssürat yaradır.

Bərpa işləri zamanı qalanın tarixiliyi qorunub saxlanılmışdır. Qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları və təndirlər, səngər və mühafizə yerləri ilkin forması saxlanılaraq bərpa olunmuşdur. Qalanın zirvəsinə doğru yol çəkilmiş, qala ərazisində işıqlandırma sistemləri yaradılmış, oturacaqlar qoyulmuş, yaşıllıqlar salınmışdır. Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın



şərq və qərb darvazaları da bərpa edilərək əvvəlki görkəminə qaytarılmışdır. Qalanın zirvəsinə gedən yolda daş üzərində həkk olunan "Tarixi yaşadanları tarix də yaşadacaqdır" fikri Əlincəqalanın bərpasının xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıdığını bir daha təsdiq edir.

Ali Məclisin Sədri Əlincəqalanın zirvəsində Azərbaycan Respublikasının bayrağını qaldırmışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev elm adamları və ziyalılar adından minnətdarlıq edərək demişdir ki, muxtar respublikada elm, təhsil və mədəniyyətin inkişafına hərtərəfli qayğı göstərilir. 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi ilə Naxçıvan tarixinin öyrənilməsi və elmi mühitin inkişafının əsası qoyulmuşdur. Bu gün tarixi abidələrimiz bərpa olunur, yeni muzeylər yaradılır, elmi tədqiqatlar aparılır, bir sözlə, tariximiz qorunub saxlanılaraq gələcək nəsillərə çatdırılır. Həyata keçirilən tədbirlər alim və tədqiqatçılar üçün geniş imkanlar açmışdır.

Ali Məclisin Sədri Naxçıvan qalalarının, xüsusilə Əlincəqalanın Azərbaycan tarixindəki əhəmiyyətini qeyd etmiş, Naxçıvan tarixinin öyrənilməsi sahəsində həyata keçirilən tədbirlərin, xüsusilə abidələrin bərpasının bundan sonra da davam etdiriləcəyini bildirmiş, bu işdə alim və tədqiqatçılara uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*18 iyun İnsan Hüquqları Günüdür*

# Muxtar respublikada insan hüquqlarının qorunması həyata keçirilən dövlət siyasətinin əsasını təşkil edir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli "Azərbaycan Respublikasında İnsan Hüquqları Gününün təsis edilməsi haqqında" Sərəncamına uyğun olaraq, hər il 18 iyun ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur.***

Azərbaycanın dünyada müstəqil, hüquqi, demokratik dövlət kimi tanınması, ölkədə insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz tərəfindən həyata keçirilən hüquq islahatları dövlətçiliyimizin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin formalaşmasına zəmin yaratmışdır. Dahi liderin 1993-cü ildə moratorium qoyduğu ölüm hökmü 1998-ci ildə tamamilə ləğv edilmiş, bununla da, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə kimi tarixə düşmüşdür. Azərbaycan BMT-nin İnsan Hüquqları Ümumi Bəyannaməsinə və digər beynəlxalq konvensiyalara da qoşulmaqla insan hüquqları sahəsində beynəlxalq miqyasda təsbit olunmuş prinsipləri əsas götürdüyünü nümayiş etdirmişdir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquq və azadlıqlarının təminatı dövlətin ali məqsədi kimi ön plana çıxmışdır. Konstitusiyanın 48 maddəsinin sırf insan və vətəndaş hüquq və azadlıqlarını özündə əks etdirməsi, ilk növbədə, ölkəmizdə bu sahənin prioritet məsələ olduğunu bir daha təsdiq edir. Ümummilli lider Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə "İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı"nın qəbul edilməsi isə Konstitusiyanın müddəalarından irəli gələn tələblərə, ölkəmizin qoşulduğu konvensiyalara, qəbul edilən qanunvericilik aktlarına müvafiq olaraq insan hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyini artırmış və qanunvericilik bazası daha da təkmilləşdirilmişdir.

Ötən müddət ərzində dövlət proqramında nəzərdə tutulmuş tədbirlər uğurlu həllini tapmış, ölkəmizin beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişlənmiş, respublikamız bir sıra beynəlxalq müqavilələrə qoşulmuş, yeni məhkəmə sistemi formalaşmış, konstitusion nəzarət mexanizmi olan Konstitusiya Məhkəməsi yaradılmışdır. 2001-ci il dekabr ayının 28-də isə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul edilmiş, ölkəmiz üçün yeni bir qurum olan Müvəkkil təsisatı yaradılmış, hüquq-mühafizə orqanlarının fəaliyyəti təkmilləşdirilmişdir.

Bu gün Azərbaycanda hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ötən müddət ərzində ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. İnsan hüquqlarının qorunmasını və bu sahədə görülən tədbirlərin genişləndirilməsini daim diqqət mərkəzində saxlayan dövlət başçısının 2006-cı il 28 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" və 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" ölkəmizdə insan hüquqlarının qorunması sahəsində həyata keçirilən dövlət siyasətinin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir. Milli Fəaliyyət Proqramının qəbulundan sonra ölkəmizdə insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət konsepsiyası təkmilləşdirilmiş, insan hüquq və azadlıqlarının müdafiəsi sisteminin davamlı inkişafı təmin edilmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı mühüm islahatlar həyata keçirilir. Ölkə başçısının "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada bu istiqamətdə inkişafı təmin etmişdir. Belə ki, fərmanın qəbul edilməsindən ötən dövr ərzində məhkəmə orqanlarının maddi-texniki bazası möhkəmləndirilmiş, Müvəkkil təsisatının fəaliyyəti təmin edilmiş, məhkumların hüquqlarının daha səmərəli müdafiəsi məqsədilə Penitensiar Xidmətin fəaliyyəti təkmilləşdirilmiş, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsi üçün vəkillik institutunun hüquqi statusu müəyyən edilmişdir.

Hər bir ölkədə demokratik inkişafın, insan hüquq və azadlıqlarının mühüm göstəricilərindən biri də mətbuat və söz azadlığının təmin olunmasıdır.

*Ardı 3-cü səhifədə*

Muxtar respublikada kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti təmin edilmiş, teleradioların, qəzetlərin, nəşriyyatların maddi-texniki bazası gücləndirilmişdir. Söz, fikir, məlumat azadlığı, o cümlədən mətbuatın inkişafı ilə bağlı həyata keçirilən islahatlar, azad mətbuatın fəaliyyətinin getdikcə gücləndirilməsi insanların öz fikrini sərbəst şəkildə ifadə etmək hüququnu təmin etmişdir. Bununla yanaşı, əhalinin informasiya almaq və bunun ən çevik forması olan internetdən istifadə imkanları artırılmışdır. Artıq Naxçıvanın bütün şəhər, qəsəbə və kəndlərində sakinlər genişzolaqlı və sürətli internetdən, İP və rəqəmsal televiziya yayımından, bütün növ rabitə və digər elektron xidmətlərdən istifadə edirlər.

Naxçıvan Muxtar Respublikasında əhalinin müxtəlif sosial qruplarının hüquqlarının müdafiəsi istiqamətində də mühüm işlər görülür. Belə ki, sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası, təhsil alması və cəmiyyətə inteqrasiyası daim diqqət mərkəzində saxlanılır. Son illər məhdud fiziki imkanların və sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının qorunması, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində işlər davam etdirilmiş, muxtar respublikada Naxçıvan Əlillərin Bərpa Mərkəzi, Naxçıvan Uşaq Bərpa Mərkəzi, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi istifadəyə verilmişdir. 2014-cü ildə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin istifadəyə verilməsi sağlamlıq imkanları məhdud uşaqların inklüziv və məsafədən təhsilinə geniş imkanlar yaratmış, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilməyən, həmçinin əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verməyən uşaqların təhsil hüququ təmin edilmişdir. Bu qəbildən olan uşaqların cəmiyyətə və təhsilə inteqrasiyasını möhkəmləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” mühüm əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikasında qadın hüquqlarının müdafiəsi də daim diqqət mərkəzində saxlanılır. Bu gün muxtar respublikada qadınlarla bağlı iş dövlət siyasətinin bütün sahələrində öz əksini tapır, qadınlar ən yüksək diqqət və qayğı ilə əhatə olunurlar. Muxtar respublikada xüsusi istedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaşadan qadınlara daim diqqət göstərilir. Gənc qızların müəyyən peşələrə yiyələnməsi, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün xalçaçı, keçəçi, dərzi, ağac üzərində oyma və sair peşə kursları təşkil olunur. Ötən dövr ərzində qadınların əl işlərindən ibarət sərgilərin keçirilməsi də onların istedad və bacarıqlarının üzə çıxarılması, o cümlədən əmək hüquqlarının həyata keçirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi və işlə təminatı məqsədilə hər il muxtar respublikanın şəhər və rayonlarında əmək yarmarkaları keçirilir, Naxçıvan Regional Peşə Tədris Mərkəzində müxtəlif peşə hazırlıq kursları təşkil edilir.

Muxtar respublikada məhkumların da hüquq və azadlıqlarının təmin olunması, saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması, peşə vərdişlərinə yiyələnməsi üzrə ardıcıl tədbirlər həyata keçirilir. Bu baxımdan məhkumların islah olunmasında əməyin böyük rolu vardır. Çünki peşə vərdişinə yiyələnmə məhkumun gələcəkdə cəmiyyətə uyğunlaşmasında mühüm rol oynayır. Bu sahədə görülən işlərin davamı olaraq 2016-cı il fevralın 24-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yeni yaradıcılıq və istehsalat binası istifadəyə verilmişdir.

*Muxtar respublikada Konstitusiyamızda təsbit edilmiş insan hüquq və azadlıqlarının daha etibarlı təmin edilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılacaq, bu sahədə səmərəli hüquqi mexanizmlərin tətbiqi bundan sonra da davam etdiriləcəkdir.*

**Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının mətbuat xidməti**

*20 iyun qaz təsərrüfatı işçilərinin peşə bayramıdır*

## Muxtar respublikada istehlakçılar dayanıqlı mavi yanacaqla təmin olunur

***Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 iyun tarixli Sərəncamına əsasən, hər il iyunun 20-si “Qaz təsərrüfatı işçilərinin peşə bayramı günü” kimi qeyd olunur.***

Ulu öndər Heydər Əliyev ötən əsrin 70-ci illərindən başlayaraq ölkəmizdə enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində mühüm qərarlar qəbul etmiş, yaşayış məntəqələrinin qazlaşdırılması istiqamətində kompleks tədbirlər görülmüşdür. 1980-ci ildə Naxçıvan Muxtar Respublikasına yüksəktəzyiqli qaz xətti çəkilmiş, yaşayış məntəqələrinin 52 faizi mavi yanacaqla təmin edilmişdir. Lakin ötən əsrin 90-cı illərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində muxtar respublika blokada vəziyyətinə düşmüş, bütün kommunikasiya xətləri kəsilmiş, o cümlədən qazın ötürülməsi dayandırılmışdı. Uzun fasilədən sonra, 2005-ci ildə Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi bərpa edilmişdir.

Muxtar respublikada qaz təsərrüfatının inkişafı daim diqqətdə saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq 2013-cü ildə 27 kilometr uzunluğunda Naxçıvan-Şahbuz ortatəzyiqli qaz xətti istifadəyə verilmişdir. Bundan başqa, uzunluğu 81,6 kilometr olan Naxçıvan-Sədərək magistral qaz kəməri 8 millimetr qalınlıqda 558,8 millimetr diametrli izolyasiyalı borularla yenidən çəkilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikanın enerji təhlükəsizliyi sahəsində görülən işləri yüksək qiymətləndirərək demişdir: ***“Naxçıvanda enerji təhlükəsizliyi məsələləri öz həllini tam şəkildə tapıbdır. Bu da çox sevindirici haldır. Bu gün Naxçıvan 100 faiz səviyyəsində qazlaşdırılıbdır. Bütün yaşayış məntəqələrində təbii qaz vardır”.***

“Naxçıvanqaz” İstehsalat Birliyi tərəfindən təbii qaz təchizatının yaxşılaşdırılması və etibarlılığının artırılması istiqamətində ardıcıl tədbirlər görülür. İstehlakçıların fasiləsiz və təhlükəsiz mavi yanacaqla təminatını diqqət mərkəzində saxlayan birliyin kollektivi qarşıda duran vəzifələri uğurla yerinə yetirir. Muxtar respublikada həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri ilə əlaqədar olaraq müvafiq sosial obyektlərin, inzibati binaların qaz təchizatı yenidən qurulur. Birliyin şəhər, rayon qaz istismarı idarələrinin qəza dispetçer xidmətləri istehlakçılardan daxil olmuş çağırışlara uyğun vaxtında tədbirlər görür, qəzaların qarşısı alınır, mavi yanacağın fasiləsiz nəqli təmin edilir.

Birlik tərəfindən təbii qazdan səmərəli istifadəni təmin etmək məqsədilə təzyiqin normalara uyğun saxlanılması üzrə gündüz və gecə texnoloji rejimləri yaradılmış və sərfiyyat qeydiyyatının aparılması ciddi nəzarətə götürülmüşdür. Avtomat qazpaylayıcı stansiyalarda avadanlıqlara texniki xidmət işləri qrafik üzrə həyata keçirilmiş, cari təmir işləri görülmüş, nasazlıqlar aradan qaldırılmışdır. Həmçinin maşın-mexanizmlər, qaynaq və digər avadanlıqların texniki vəziyyəti yoxlanılmış, çətin şəraitdə etibarlı istismar üçün hazır vəziyyətə gətirilmişdir. Mütəmadi olaraq yeraltı xətlərdə korroziyaya uğrayan hissələr yeni borularla əvəz olunmuş, yeraltı yüksək və ortatəzyiqli magistral qaz kəmərlərinin üzərində quraşdırılmış katod elektrokimyəvi mühafizə qurğularına nəzarət olunmuş, xətlərdəki potensial fərqi ölçülərək nəzarətdə saxlanılmışdır.

Muxtar respublikada qaz təsərrüfatında infrastrukturun təkmilləşdirilməsi məsələləri də daim diqqət mərkəzində saxlanılır. Bu tədbirlər çərçivəsində aşağıtəzyiqli qazdan istifadə edən istehlak obyektlərində smartkarttipli elektron qaz sayğaclarının quraşdırılmasına başlanılmışdır. Bu günə qədər 10 min 533 ədəd smartkarttipli elektron qaz sayğacı quraşdırılmışdır. Bu sahədə görülən işlərin davamı olaraq “Naxçıvanqaz” İstehsalat Birliyində muxtar respublikada təbii qaz istehlakçıları tərəfindən istifadə olunan və qaz təsərrüfatında istismarda olan nəzarət-ölçü cihazlarının yoxlanma və kalibr edilməsi laboratoriyası qurulmuşdur.

Kadr potensialının artırılması, qaz istismar sahəsində çalışanların ixtisas dərəcəsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi də diqqətdə saxlanılır. Naxçıvan Regional Peşə Tədris Mərkəzində “Qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər” peşə kursları yaradılmış və şəhər, rayon qaz istismarı idarələrinin işçiləri mütəmadi qaydada kurslara cəlb olunmuşdur.

Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi enerji təhlükəsizliyinin təmin olunmasına, ətraf mühitin qorunmasına da mühüm töhfə verir. Belə ki, muxtar respublikanın təbii qazla davamlı və keyfiyyətli təminatı təbiətin qorunmasında və ekosistemin zənginləşdirilməsində əhəmiyyətli rola malikdir.

Muxtar respublikanın qaz təsərrüfatında idarəetmə sisteminin daha da təkmilləşdirilməsi, itkilərin azaldılması yolu ilə səmərəliliyin artırılması, qazın nəqli və paylanmasında operativliyin təmin edilməsi, istismar və texniki təhlükəsizliyə nəzarətin gücləndirilməsi istehlakçıların təbii qazla etibarlı təminatına şərait yaratmışdır. Təbii qazdan təhlükəsiz və səmərəli istifadə olunması məqsədilə abonentlərin maarifləndirilməsinə xüsusi diqqət yetirilir, baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması üçün mütəmadi olaraq iş aparılır.

*Qaz təsərrüfatı işçiləri yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da muxtar respublikada enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək, abonentlərin təbii qazla fasiləsiz təminatı üçün səylə çalışacaqlar.*

**“Naxçıvanqaz” İstehsalat Birliyinin mətbuat xidməti**

*Naxçıvan məhsulları xarici bazarda*

## “Sirab” mineral sular ixracatçısı olan Türkiyə və Rusiya bazarında

***“Sirab” mineral su yatağı Naxçıvan şəhərindən 14,6 kilometr şimal-şərqdə, Babək rayonunun Sirab kəndi ərazisində, dağ ətəyində yerləşir. “Sirab” mineral su yatağı 3 yeraltı mineral su hövzəsindən ibarətdir. Həmin hövzələr Şorsudərə, Kalbayağıl və Kütandağ mineral su hövzələridir.***






“Sirab” əvəzsiz süfrə suyu olmaqla bərabər, yüksək müalicəvi əhəmiyyətə malikdir. Belə ki, ağciyər, öd kisəsi, həzm yolları və böyrək xəstəlikləri, mübadilə pozğunluqları zamanı istifadə edilir. Həmçinin qan dövranını, tənəffüsü, regenerasiyanı, ürək fəaliyyətini yaxşılaşdırır, mədə-bağırsaq xəstəlikləri zamanı şirəqovucu kimi əhəmiyyətli olur, dilin dad reseptorlarının həssaslığını yüksəldir, aerozol şəklində tənəffüs yolları xəstəliklərinə və allergik xəstəliklərə müsbət təsir edir.

“Sirab” Mineral Sudoldurma Zavodunun bazasında yaradılan Açıq Səhmdar Cəmiyyəti əsaslı təmir və yenidənqurma işlərindən sonra 2005-ci ilin noyabr ayında istifadəyə verilib. Beş hektar ərazini əhatə edən müəssisədə 2 mərtəbəli inzibati bina, işçilərə iaşə xidməti göstərilməsi üçün yeməkxana, istehsal və digər yardımçı sexlər, anbar, karbon qazı və kompressor stansiyası yerləşir.

Müasir texnoloji avadanlıqlarla təmin olunmuş bu müəssisədə yüksəkkeyfiyyətli məhsul istehsal olunur. Müəssisənin fəaliyyətinin genişləndirilməsi, istehsal həcminin artırılması və yeni istehsal sahəsinin – qazsız su istehsalı sahəsinin yaradılması üçün Sahibkarlığa Kömək Fondundan 2011-ci ilin fevral ayında 700 min manat, aprel ayında isə 350 min manat güzəştli kredit ayrılıb. Bundan sonra bir sıra tədbirlər həyata keçirilib, müəssisədə 625 kvadratmetr sahəsi olan binada əsaslı təmir və yenidənqurma işləri aparılıb, Türkiyə Respublikasının “Ersey Makina” şirkətindən istehsal gücü saatda 11 min ədəd 0,5, 9 min ədəd 1, 8 min ədəd 1,5 litrlik butulkalarda, 5, 10 və 19 litrlik taralarda qazsız su olan müasir texnoloji avadanlıqlar alınıb gətirilərək quraşdırılıb. Bundan başqa, müəssisədə müasir texnoloji avadanlıqlarla təmin olunmuş xüsusi bakterioloji laboratoriya istifadəyə verilib. Yeni istehsal sexində lazerlə tarixvurma avadanlığı quraşdırılıb, ki, bu da ölkəmizdə 3 böyük şirkətdə mövcuddur. Ümumilikdə, yeni istehsal sahəsinin yaradılmasına və müasir texnoloji avadanlıqların alınmasına 1 milyon 350 min manat vəsait sərf olunub. Bunun da 300 min manatı daxili imkanlar hesabına ödənilib. Bu istiqamətdə işlər uğurla davam etdirilib, 2014-cü ilin mart ayında “Sirab premium” adında 4 çeşiddə qazlı və qazsız mineral su istehsalına başlanılıb. Qeyd edək ki, “Sirab premium” adı ilə satışa çıxarılan mineral su qablaşdırma üsulu ilə seçilir.

Burada istehsal prosesi tam avtomatlaşdırılıb. Müəssisənin sexlərində müxtəlif həcmli plastik və şüşə butulkalarda olmaqla, 16 çeşiddə məhsul istehsal olunur.

“Sirab” mineral suyu 2005-ci ilin may ayında İsveçrənin Cenevrə şəhərində keçirilən beynəlxalq forumun “İş təcrübəsində yüksək keyfiyyətlərə görə” adlı qızıl medalına, 2009-cu ilin oktyabr ayında Ukrayna Respublikasında keçirilən XII beynəlxalq sərgidə qızıl medala, 2010-cu ilin fevral ayında Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçirilən XVII beynəlxalq sərgidə gümüş medala, 2011-ci ildə yenə Moskva şəhərində və Qazaxıstan Respublikasının Almatı şəhərində keçirilən beynəlxalq sərgilərdə qızıl medallara layiq görülüb. Həmçinin bu əvəzsiz təbii sərvətimizin Avropa ölkələrində və digər xarici ölkələrdə satışını təmin etmək üçün möhkəm baza yaradılıb. Babək “Sirab” Açıq Səhmdar Cəmiyyətində bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sisteminin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO-22000 və İSO-9001 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılıb.

Kollektiv cari ilin ilk 5 ayında 0,5, 1, 1,5 litrlik plastmas butulkalarda qazlı və qazsız, 0,33, 0,5 litrlik şüşə butulkalarda qazlı, 5, 10 və 19 litrlik plastmas taralarda qazsız olmaqla, ümumilikdə, 2 milyon 988 min 627 ədəd butulka və taralarda mineral su istehsal edib. Bunun 54 min 880 ədədi sifarişə uyğun olaraq muxtar respublika ərazisində satılıb, 2 milyon 719 min 719 ədədi Bakı şəhərində və respublikamızın müxtəlif bölgələrində fəaliyyət göstərən ayrı-ayrı ticarət obyektlərinə yola salınıb, 214 min 28 ədədi isə Rusiya Federasiyasına, Ukrayna, Türkiyə və Litva respublikalarına göndərilib. Beləliklə, istehsal olunan ümumi məhsulun 2 faizi muxtar respublikada, 91 faizi Bakı şəhərində və respublikamızın müxtəlif bölgələrində, 7 faizi isə xarici ölkələrdə satışa çıxarılıb. Gələcəkdə digər xarici ölkələrdə də “Sirab” suyunun satışa çıxarılması nəzərdə tutulur. “Sirab” mineral suyunun Avropa bazarına çıxarılması, mineral su ixracatçısı olan Rusiya Federasiyasına və Türkiyə Respublikasına ixrac olunması və su bazarında özünəməxsus yer tutması bu əvəzsiz təbii sərvətimizin yüksək keyfiyyəti və müalicəvi əhəmiyyəti ilə bağlı olub, Babək “Sirab” ASC-nin bazar iqtisadiyyatının tələblərinə uyğun yüksəkkeyfiyyətli məhsul istehsal edib rəqabətqabiliyyətli müəssisəyə çevrildiyinin göstəricisidir.

**Kərəm HƏSƏNOV**

# İdmançıların mənalı istirahəti təşkil ediləcək

## Ağbulaq İstirahət Mərkəzinin budəfəki qonaqları güləşçilər olub

*Cari ilin mart ayının 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən idman federasiyaları üzvlərinin Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunur. İyunun 16-da mərkəz Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının 45 nəfər yetirməsini qəbul edib.*





Naxçıvan şəhərindən avtobusla yola düşən yeniyetmə güləşçiləri Ağbulaq İstirahət Mərkəzində mərkəzin əməkdaşları qarşılayıb. İdmançılar əşyalarını yerləşdirdikdən sonra mərkəzlə tanış olublar. Onlara ətraflı məlumat verilərək bildirilib ki, Ağbulaq İstirahət Mərkəzi Naxçıvanda kənd turizminin inkişaf etdirildiyi ən gözəl məkanlardan biridir. Tikintisinə 2011-ci ildə başlanılan mərkəz 2013-cü ildə istifadəyə verilib. 3,5 hektar ərazisi olan mərkəz 3 yaşayış korpusundan və 1 yeməkxana binasından ibarətdir. İkimərtəbəli və 56 yerlik korpuslarda, ümumilikdə, 38 otaq var.

Mərkəzlə tanışlıqdan sonra idmançılar nahar yeməyinə yollanıblar. Sonra güləşçilər proqrama uyğun olaraq müxtəlif stolüstü oyunlarda mübarizə aparıblar. Şahmat, dama kimi zehni oyunlarda idmançıların nümayiş etdirdikləri oyunlar diqqətdən yayınmayıb. Güləşçilərin Ağbulaq kəndi ərazisindəki təbiət abidələri ilə tanışlığından sonra onların “Ağbulaq” bulağına yürüşü keçirilib. Şam yeməyindən sonra federasiyanın yetirmələrinə vətənpərvərlik mövzusunda “Nuh yurdu – Naxçıvan” sənədli filmi nümayiş etdirilib.

Növbəti gün səhər yeməyindən sonra güləşçilər proqrama uyğun olaraq müxtəlif idman yarışlarında qüvvələrini sınayıblar. Mərkəzin stadionunda keçirilən mini-futbol yarışında 7 komandanın rəqabəti daha çox marağa səbəb olub. Bununla yanaşı, idmançılar voleybol, badminton kimi idman növlərində də öz güclərini göstəriblər.

Nahar yeməyinin ardınca idmançılar üçün əyləncəli saat təşkil edilib. Sonra federasiyanın yetirmələrinin Ağbulaq İstirahət Mərkəzində ikigünlük istirahətinə yekun vurulub və onlar Naxçıvan şəhərinə qayıdıblar.

İkigünlük istirahət həm mərkəzdə olan məşqçilərdə, həm də idmançılarda razılıq doğurub. İdmançıların asudə vaxtlarının təşkili istiqamətində görülən işlərlə maraqlandıq, onların təəssüratlarını öyrəndik. Federasiyanın məşqçisi Əli Quliyevlə söhbət zamanı bildirdi ki, idmançıların istirahəti proqrama uyğun olaraq təşkil edilib. Proqram çərçivəsində güləşçilər müxtəlif tədbirlərə qatılıblar ki, bu da onların səmərəli istirahətlərini təmin edib. İdmançılar arasında dostluq və yoldaşlıq münasibətlərinin qurulmasında, asudə vaxtın düzgün təşkilində belə səyahətlər mühüm rol oynayır.

Naxçıvan güləş məktəbinin yetirməsi, 5 ildir, bu idman növü ilə məşğul olan Qoca Əhmədov bizimlə söhbətində qeyd etdi ki, ilk dəfədir, Ağbulaq İstirahət Mərkəzinə gəlir. Bura gələcəklərini eşidəndə çox sevinib. İstirahət mərkəzində onların rahatlığı üçün hər bir şərait yaradılıb. İki gün burda yaxşı dincəliblər. Xüsusilə müxtəlif idman yarışlarında iştirak etmək onlar üçün xoş olub.

Muxtar İbrahimov da istirahət mərkəzində yaradılmış hərtərəfli şəraitə görə minnətdarlığını bildirdi.

Güləşçi Mətləb Talıblı da fikirlərini bizimlə bölüşdü: “Ağbulaq İstirahət Mərkəzinə ilk dəfədir ki, gəlirəm. Haqqında eşitsəm də, bu mərkəzin belə gözəl, səfalı yerdə yerləşdiyini təsəvvür etmirdim. Təbiəti, havası çox gözəldir. Burada olduğumuz müddətdə heç darıxmadıq”.

Qeyd edək ki, bu tədbir Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının birgə təşkilatçılığı ilə həyata keçirilib.

# İdmançıların muzeylərə ziyarətləri davam etdirilir



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamına əsasən, muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının məşqçi-müəllimləri, idmançıları da muzeylərimizi ziyarət edirlər.***

Dünən Karate-do, Şərq Döyüşü Sənəti və Voleybol federasiyaları üzvlərinin müvafiq olaraq Naxçıvan Dövlət Tarix Muzeyinə, Xatirə Muzeyinə və Dövlət Bayrağı Muzeyinə ziyarətləri təşkil olunub.

Naxçıvan Dövlət Tarix Muzeyində Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının məşqçilərinə və idmançılarına bildirilib ki, 1924-cü ildə fəaliyyətə başlayan muzeydə qədim, orta əsrlər və müasir dövrü əhatə edən 49 minə yaxın eksponat qorunub saxlanılır. 10 şöbədən ibarət olan ekspozisiyada müxtəlif tarixi dövrlərə aid məişət əşyaları və əmək alətləri, muxtar respublika ərazisində aşkar olunan mis və gümüş pullar nümayiş etdirilir. Həmçinin muzeydə xalçaçılıq, zərgərlik, misgərlik, dulusçuluq və nəqqaşlıq sənəti nümunələri, xalq ustalarının müxtəlif əl işləri, eləcə də Naxçıvanın müasir inkişafını əks etdirən zəngin materiallar özünə yer alıb. Bildirilib ki, Naxçıvan Dövlət Tarix Muzeyi böyük dövlət qayğısı ilə əhatə olunan mədəniyyət müəssisələrindən biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə 2000 və 2007-ci illərdə muzeyin binasında əsaslı təmir-tikinti işləri aparılıb.

Son illər muzeyin ekspozisiyası tamamilə yenidən qurulub, eksponatların həm fiziki, həm də bioloji cəhətdən etibarlı mühafizəsi üçün ekspozisiya yeni vitrinlər və saxlanc qurğuları ilə təchiz edilib.

Xatirə Muzeyində isə Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının üzvlərinə məlumat verilib ki, muzey binasının əhəmiyyətini artıran mühüm amillərdən biri onun Şəhidlər xiyabanı yaxınlığında yerləşməsidir. Vurğulanıb ki, 1500-dən çox eksponatın saxlanıldığı muzeydə təcavüzkar erməni daşnaklarının ayrı-ayrı dövrlərdə azərbaycanlılara qarşı törətdikləri dəhşətli cinayətlərin izləri öz əksini tapıb. Burada Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olan şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar nümayiş etdirilir. Muzeyin iki guşəsi isə 1941-1945-ci illər müharibəsinin qəhrəmanlarına həsr olunub. Qeyd edilib ki, həmin müharibədə muxtar respublikamızdan 30 minə yaxın həmyerlimiz iştirak edib, onlardan yarısı geri qayıtmayıb. Alman faşizmi üzərində qələbənin qazanılmasında həmyerlilərimiz qəhrəmanlıqlar göstərərək müxtəlif orden və medallarla təltif olunublar.

Dövlət Bayrağı Meydanı və Muzeyini ziyarət edən Voleybol Federasiyasının idmançı və məşqçilərinin diqqətinə çatdırılıb ki, Dövlət Bayrağı Meydanı və Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən yaradılıb və 2014-cü il noyabrın 17-dən fəaliyyətə başlayıb. Muzeydə Naxçıvanda müxtəlif dövrlərdə qəbul edilmiş bayraqlar və dövlət atributları nümayiş etdirilir. Vurğulanıb ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə təsis edilmiş üçrəngli bayrağımız ikinci dəfə ulu öndər Heydər Əliyev tərəfindən 1990-cı il noyabrın 17-də Naxçıvanda qaldırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 2014-cü il 17 noyabr tarixli Sərəncamı ilə hər il noyabr ayının 17-si Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

✍ **Ceyhun MƏMMƏDOV**

*28 May – Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı 15 iyun 2016-cı il tarixdə qüvvəyə minib və həmin gün də icrası təmin olunub.*

# Amnistiya aktı icra olunub



Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində tədbir keçirilib. Tədbirdə Penitensiar Xidmətin şöbə rəisi Əli Səfərov çıxış edərək bildirib ki, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində görülən tədbirlər nəticəsində humanizm prinsiplərinə dayanan qanunlar qəbul olunub, cəzaçəkən şəxslərin yaşayış şəraitləri yaxşılaşdırılıb. Naxçıvan Muxtar Respublikasında da insan hüquq və azadlıqları, o cümlədən məhkumların hüquqları hərtərəfli şəkildə qorunur.

Vurğulanıb ki, dövlətimizin humanist addımları nəticəsində minlərlə məhkum əfv və amnistiya qərarlarına əsasən cəzadan azad olunub və ailələrinə qovuşub.

Qeyd olunub ki, 28 May – Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 20 may 2016-cı il tarixli qərarına əsasən, muxtar respublikamızda 9 məhkum cəzadan vaxtından əvvəl azad olunub, 1 məhkumun isə cəzası yüngülləşdirilib.

Tədbirdə azad olunanlara sənədləri təqdim edilərək uğurlar arzu edilib.

Bu humanist addıma görə məhkumlar və onların ailə üzvləri dövlətimizə minnətdarlıqlarını bildiriblər.

✍ **Kərəm HƏSƏNOV**

# Turizmə yararlı peşəkar sürücülərə sertifikatlar verilib

“Naxçıvan” Universitetində yenicə yaradılmış Turizm informasiya mərkəzinin təşkilatçılığı ilə yeni bir layihə reallaşdırılaraq taksi sürücüləri üçün “Turizmə yararlı peşəkar sürücü” hazırlamaq məqsədilə kurs təşkil edilib.

Bununla bağlı olaraq kursu müvəffəqiyyətlə başa vuran sürücülərin mükafatlandırma mərasimi olub. Tədbiri giriş sözü ilə universitetin tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli açaraq bildirib ki, ümummilli liderimiz Heydər Əliyev ölkəmizdə turizmin inkişafına xüsusi önəm verirdi. Bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsini təmin edirdi. Görkəmli dövlət xadiminin ölkəmizdə turizmin inkişafı üçün müəyyənləşdirdiyi siyasət bu gün ölkə başçısı tərəfindən uğurla davam etdirilir. Qeyd olunub ki, muxtar respublikamız yeraltı və yerüstü sərvətləri, təbiət və tarixi abidələri ilə turizm üçün ən gözəl məkanlardan biridir. Buna görə də regionumuzda bu sahənin inkişafına xüsusi diqqət yetirilir.

Tədbirdə Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəcəb Səfərli, Turizm informasiya mərkəzinin rəhbəri Şahnaz Məmmədova, Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin Nəqliyyatda əlaqələndirmə və lisenziyalaşdırma şöbəsinin müdiri Ramin Qəhrəmanov tərəfindən turizmə yararlı peşəkar sürücülərə sertifikatlar təqdim olunub.

Qeyd edək ki, kursun gedişatı zamanı sürücülərə muxtar respublikanın coğrafi mövqeyi, tarixi, əyləncə sektoru, milli mətbəxi və tanınmış ziyalıları haqqında geniş məlumat verilib. Bundan başqa, onlara ingilis və rus dillərində turistləri qarşılamaq məqsədilə terminoloji lüğət də öyrədilib.

Məlumat üçün onu da bildirək ki, sertifikat alan sürücülər haqqında məlumat və onların əlaqə nömrələri facebook sosial şəbəkəsinin “Gənc tur” səhifəsində yer alıb. Bu da, öz növbəsində, turistlərə onlara yararlı olan sürücülərlə əlaqə saxlamaq imkanı verəcəkdir.

**Nuray ƏSGƏROVA**

# Naxçıvan Muxtar Respublikası üzrə 17 iyun 2016-cı il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 7637 | 31 | 93 | 30,0 |
| 2. | Babək rayonu | 9167 | 373 | 1044 | 28,0 |
| 3. | Ordubad rayonu | 1949 | 290 | 844 | 29,1 |
| 4. | Culfa rayonu | 4466 | 248 | 631 | 25,4 |
| 5. | Kəngərli rayonu | 3965 | 270 | 650 | 24,1 |
| 6. | Şahbuz rayonu | 1337 | - | - | - |
| 7. | Sədərək rayonu | 1947 | 30 | 88 | 29,3 |
| 8. | Naxçıvan şəhəri | 1111 | 9 | 24 | 26,7 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **31579** | **1251** | **3374** | **27,0** |

**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 477